«ƏHMƏD AĞAOĞLU VƏ TÜRK DÜNYASI»
Beynəlxalq elmi konfransın
MATERİALLARI
Bakı, 16 noyabr 2023-cü il

PROCEEDINGS
of International Scientific Conference on
«AHMET AGAOGLU AND THE TURKIC WORLD»
Baku, 16 November 2023

https://doi.org/10.59849/iscaatw.2023.23

Şahbaz Şamıoğlu*

ƏHMƏD AĞAOĞLUNUN EPİSTOLYAR İRSİ TARİXİ-MƏDƏNİ, İCTİMAİ-SİYASİ ASPEKTLƏR KONTEKSTİNDƏ

Xülasə

Əhməd Ağaoğlunun zəngin yaradıcılığında epistolyar irsinin xüsusi yeri vardır. Təhlillər göstərir ki, ailə üzvlərinə və müasirlərinə göndərdiyi məktublar Ə.Ağaoğlunun elmi bioqrafiyasının hazırlanması üçün mükəmməl mənbələrdir, onun Şuşa, Tiflis, Paris, Ankara, İstanbul həyatı barədə ətraflı bilgilər verməkdədir. Məktublar, həmçinin, Ə.Ağaoğlunun siyasi, elmi-fəlsəfi görüşləri haqqında aydın təsəvvür formalaşdıra bilir və Türkçülük, Turançılıq ideyalarının üzərinə işıq salmaq gücündədir. Ə.Ağaoğlunun epistolyar irsi, eyni zamanda, onun cəmiyyətdə Qərb, ailədə Şərq dəyərlərinə üstünlük verdiyini təsdiqləyir.

Araşdırmada Ə.Ağaoğlunun epistolyar irsi ünvanlılıq baxımından sistemləşdirilmiş, onun Maltadan ailə üzvlərinə göndərdiyi, Nəriman Nərimanova və Əli bəy Hüseynzadəyə yazdığı məktublar təhlil edilmişdir.

Araşdırmalar göstərir ki, Malta məktubları Ə.Ağaoğlunun xarakterini bütün cizgiləri ilə ortaya qoyur. Belə qənaət hasil olur ki, həmin məktublar Ə.Ağaoğlunun bir şəxsiyyət kimi gerçək obrazının qavranılmasında müstəsna əhəmiyyət daşıyırlar.

Ə.Ağaoğlunun N.Nərimanova məktublarından görünür ki, ayrı-ayrı siyasi baxışlara malik olsalar da, onların bir-birinin şəxsiyyətinə münasibəti məhz siyasətin fövqündə dayanır.

* Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Erkən realizm və Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru, shindi61@mail.ru

Ə.Ağaoğlunun Ə.Hüseynzadəyə ikisi fransızca olmaqla on beş məktubu isə türk düşüncə tarixinin iki nəhəng simasının münasibətlərini bütün parametrləri ilə göstərmək gücündədir.

Yekun qənaət bundan ibarətdir ki, Ə.Ağaoğlunun epistolyar irsi xüsusi əhəmiyyətə malikdir və tarixi-mədəni, ictimai-siyasi aspektlər kontekstində araşdırılması vacib məsələlərdəndir.

Açar sözlər: epistolyar irs, tarixi-mədəni, ictimai-siyasi, Malta, Nəriman Nərimanov, Əli bəy Hüseynzadə

Giriş. Azərbaycan ədəbi-bədii, ictimai-mədəni, elmi-fəlsəfi fikir tarixinin öyrənilməsində epistolyar janrda qələmə alınmış əsərlərin xüsusi əhəmiyyəti vardır. İntibah dövrü Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xaqani Şirvaninin Şirvanşah Mənuçöhr və Axsitana, Qızıl Arslana, Məliküşşüəra Kafiəddinə, digər tanınmış şəxslərə ünvanladığı 60 məktubu [1, s.76.] şairin həyatı, yaradıcılığı və müasirləri ilə əlaqələrini öyrənmək baxımından maraqlıdır. Məhəmməd Füzulinin Nişançı Paşaya ana dilində yazdığı və ədəbiyyat tariximizə "Şikayətnamə" kimi daxil olan məşhur məktubu onun cəmiyyətdə mövqeyini, bürokratiya və süründürməçiliyə barışmaz münasibətini göstərir, şair-vətəndaş kimi gerçək obrazının qavranılmasına yardımçı olur. Milli dramaturgiya, realist bədii nəsrin və professional ədəbi tənqidin banisi Mirzə Fətəli Axundzadənin dövlət və hökumət başçılarına, dövrünün tanınmış yazıçı və filosoflarına, elm və din xadimlərinə, onlarla müasirinə Azərbaycan, fars, ərəb və rus dillərində yazdığı məktublar onun yeni əlifba uğrunda mübarizəsini, "Kəmalüddövlə məktubları"nın çapı ilə bağlı çalışmalarını hətta ən xırda detallarına qədər açıb-göstərir, maarifçilik ideyalarını bütün parametrləri ilə ortaya qoyur. Həsən bəy Zərdabi, Firidun bəy Köçərli, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Əli bəy Hüseynzadə, Üzeyir bəy Hacıbəyli, Ceyhun bəy Hacıbəyli, Abdulla Şaiq və onlarla başqa fikir adamlarımızın epistolyar irsi milli mətbuat tariximiz, mətbuatın inkişafına əngəl törədən obyektiv və subyektiv amillər, ədəbiyyatın məfkurə və missiyası haqqında çoxçeşidli düşüncələrlə bağlı günümüzə zəngin informasiyalar ötürür, tədqiqatçılar üçün bol-bol materiallar verir, mötəbər mənbələr kimi əhəmiyyət kəsb edir. Bu baxımdan, Ə.Ağaoğlunun zəngin epistolyar irsi mövzu və mündəricə

etibarilə xüsusi maraq doğurur və təsadüfi deyildir ki, həmin incilər həm Türkiyədə, həm də müstəqilliyini bərpa edəndən sonra Azərbaycanda nəşr olunmaqda, araşdırılmaqdadır.

Əsas hissə. Tanınmış mühacirətşünas, Ə.Ağaoğlu irsinin mükəmməl tədqiqatçılarından olan filologiya elmləri doktoru Abid Tahirli haqlı olaraq bu qənaətdədir ki, Əhməd Ağaoğlunun "...ömür yolunu, həyata baxışını, yaradıcılığındakı təkamül prosesini, görüşlərini, dövrünün tanınmış şəxsləri ilə münasibətlərini, əlaqə və əməkdaşlığını hərtərəfli və dərindən öyrənmək, təhlil etmək və dəyərləndirmək üçün..." [2] onun böyük maraq doğuran epistolyar irsi hərtərəfli araşdırılmalıdır. Yeri gəlmişkən, A.Tahirli Ə.Ağaoğlunun məktublarını yazılma tarixinə, mövzusuna, ünvanladığı şəxslərə görə həm dövrləşdirmiş, həm də qruplaşdırmışdır [2]. Onun fikrincə, Ə.Ağaoğlunun Malta sürgünənədək və ondan sonra qələmə aldığı məktublar qismən öyrənilmişdir.

Ə.Ağaoğlunun məktublarının tam və hərtərəfli öyrənilməsindən, şübhəsiz ki, bəhs etmək mümkün deyildir. Hər şeydən əvvəl ona görə ki, Ə.Ağaoğlunun müxtəlif vaxtlarda və məkanlarda ən müxtəlif şəxslərə göndərdiyi məktubların hamısının əldə olduğunu qətiyyən iddia etmək olmaz. Zənnimizcə, Ə.Ağaoğlunun əldə olan məktublarının böyük bir qismi ailə üzvlərinə göndərdikləridir və təbii ki, övladları onları, xüsusən də Maltadan göndərdiklərini göz bəbəyi kimi qoruyub-saxlamağa çalışmış, sonralar çap etdirdikləri xatirə və memuarlarda, yeri gəldikcə, ictimailəşdirmişlər. Əlbəttə, ailə üzvlərinə göndərilən məktubların da hamısının günümüzə gəlib çıxdığını söyləmək mümkün deyil. Ə.Ağaoğlunun həyatı mürəkkəb hadisələrlə dolu olmuş, həbsə düşmüş, sürgün edilmiş, Ankarada, İstanbulda yaşamış, evdənevə, şəhərdən-şəhərə köçmüşdür və ailə üzvləri də bilavasitə bu köçkünlüyün içərisində olmuşlar. Məktublarından birində yazırdı: "Yine yeniden İstanbuldayız. Bu benim dördüncü ev kuruşumdur. Artık düşününüz, hayatın mevceleri beni ne kadar dalğalandırmışdır. Hiç olmazsa, bu evimiz artık mustakar olsa. Türkün köçebeligi ezeli talihdir. Ben de bu Türkün hakikaten canlı bir misaliyim" [3, s.36.]. Olduqca mürəkkəb və keşməkeşli hadisələr içərisində, təbii ki, məktubların hamısının ailə içərisində

belə qorunub-saxlanılmasından danışmaq mümkün deyildir. Türkiyənin dövlət arxivləri, eləcə də Ə.Ağaoğlunun tanınmış müasirlərinin şəxsi arxivlərində onun Maltadan göndərdiyi və bu vaxta qədər ictimailəşdirilməmiş məktublarının saxlanıldığına və nə vaxtsa üzə çıxarılacağına ümid etmək olar. Mühacirətşünas Abid Tahirli Ə.Ağaoğlunun Maltadan ailəsinə göndərdiyi və bu vaxta qədər heç yerdə çap olunmamış 20-dən çox məktubunu aşkarlayaraq Azərbaycanda həm nüfuzlu mətbuat orqanlarında, həm də özünün fundamental kitabında ictimaiyyətə təqdim etmişdir [4, s.27-41]. Türkiyəli araşdırıcı Ömər Erdən Ə.Ağaoğlunun Maltadan ailəsinə göndərdiyi 130-dan çox məktubu mükəmməl ön söz və şərhlərlə çap etdirmişdir [5]. Hər iki araşdırıcının kitablarında yer alan nümunələr müxtəlif tarixlərdə qələmə alınmış ayrı-ayrı məktublardır. Bu da onu göstərir ki, haradasa araşdırıcıların yolunu gözləyən hələlik aşkarlanmamış məktublar qalmaqdadır.

Ə.Ağaoğlunun məktublarının hərtərəfli tədqiqi çağdaş mühacirətşünaslığın aktual vəzifələrindən hesab olunmalıdır. Kimlərə ünvanlandığından asılı olmayaraq, məktubların böyük əksəriyyəti şəxsi yazışma çərçivəsindən çıxaraq ictimai-kulturoloji əhəmiyyət daşımaqdadır. Məhz bu cəhət onun epistolyar irsini tədqiqatçılar üçün kifayət qədər cazibədar etmişdir.

Məktublar:

– Ə.Ağaoğlunun elmi bioqrafiyasının hazırlanması üçün mükəmməl mənbələrdir;

– Şuşa, Tiflis, Paris, Ankara, İstanbul həyatı barədə bilgilər verməkdədir;

– Mühiti və müasirləri ilə əlaqələrinin öyrənilməsinə yardımçı vasitələrdəndir;

– Siyasi, elmi-fəlsəfi görüşləri haqqında aydın təsəvvür formalaşdıra bilir;

– Türkçülük və Turançılıq ideyaları üzərinə işıq salmaq gücündədir;

– Cəmiyyətdə Qərb, ailədə Şərq dəyərlərinə üstünlük verdiyini təsdiqləyir və s.

Ə.Ağaoğlunun epistolyar irsi ünvanlılıq baxımından kifayət qədər zəngindir. Ömrünün əlli ildən çoxu olduqca mürəkkəb ha-

disələr içərisində keçən Ə.Ağaoğlu sıravi, sadə qohum-qardaşından tutmuş dövrünün ən tanınmış simalarına qədər müxtəlif zümrələrdən olan onlarla şəxslə məktublaşmış, onu narahat edən məsələləri müzakirə etmiş, yeri gəldikcə polemikaya girmiş, özünün mövqeyini ortaya qoymuşdur.

Ə.Ağaoğlunun dövrünün tanınmış şəxsiyyətlərinə və ailəsinə məktubları böyük sələfi M.F.Axundzadənin müasirləri və oğlu Rəşidlə yazışmalarını[1] [6, s.3] xatırladır. Əgər M.F.Axundzadə müasirlərinə yazdığı məktublarda maarifçilik ideyalarını təbliğ edir, mənsub olduğu xalqın dünyanın mədəni xalqları səviyyəsinə yüksəlməsi uğrunda mübarizə aparır, Səbuhini mədəni mərkəzə – Tiflisə, Şahbaz bəyi Parisə göndərməyi arzulayır, oğlu Rəşidi Brüsselə yola salırsa, onun xələfi Ə.Ağaoğlunun özü Tiflisə, Parisə gedir, Qərbin mütərəqqi dəyərlərini Şərqə daşımağa çalışır, Türkün nicat yolunu müəyyənləşdirir, Turanın coğrafiyasını cızır... Ə.Ağaoğlu əslində dünyaya M.F.Axundzadənin yaratdığı alandan boylanır, lakin daha geniş miqyasda. Həm M.F.Axundzadənin, həm də Ə.Ağaoğlunun məktubları milli düşüncə tariximizin salnamələri kimi əhəmiyyətlidir. M.F.Axundzadənin görüşlərində Azərbaycan bütöv Şərqin içərisindədir. M.F.Axundzadə Azərbaycanı, onun yeniləşməsini Şərqin müasirləşməsi kontekstində qavrayır. Ə.Ağaoğlunun düşüncəsinə görə isə Türklük bölünmə qəbul etməyən bir bütündür və o bu bütövə xidməti vacib sayır. M.F.Axundzadənin mədəni cəhətdən bütöv Şərq ideyası ilə Ə.Ağaoğlunun siyasi, iqtisadi, coğrafi, mədəni baxımdan bütöv Türk dünyası ideyası bir-birini tamamlayır. Odur ki, M.F.Axundzadənin məktubları kimi, Ə.Ağaoğlunun da epistolyar irsinin hərtərəfli araşdırılmasına ciddi ehtiyac vardır və bu, elmi-kulturoloji baxımdan xüsusi əhəmiyyətə malikdir.

Ə.Ağaoğlunun epistolyar irsində onun Maltada sürgündə olarkən[2] [5, s.XV, XVIII, XIX, XXIII] ailə üzvlərinə – həyat yoldaşı Sitarə xanıma və bacısı Humaya, övladları Sürəyya, Tazə

[1] Tədqiqatçılar R.Axundovun atasına 53, M.F.Axundzadənin oğluna 2 məktubunu ictimailəşdirmişlər.

[2] Ə.Ağaoğlu 1919-cu il martın 15-də həbs edilmiş, mayın 28-də saxlanıldığı Bəkirağa Bölüyündən Limni adasına gətirilmiş, sentyabrın 21-də Maltaya aparılmış, azad olunana qədər Polverista və Verdalada sürgün həyatı yaşamışdır.

xanım (Tezər), Əbdürrəhman, Əbdüssəməd (Səməd) və Gültəkinə göndərdiyi məktublar kifayət qədər maraqlıdır. Bu məktublar Ə.Ağaoğlunun xarakterini bütün cizgiləri ilə ortaya qoyur. Ən ağır məqamlarda belə nikbinliyini qoruyub-saxladığını, mübarizliyini, mətinliyini, çətinlik qarşısında əyilmədiyini, doğrunun, ədalətin yanında olduğunu, emosionallığını, dosta sədaqətini, əhdə vəfalılığını, ən nəhayət, azad olacağına dərin inamını göstərir. Həmin məktublar Ə.Ağaoğlunun bir şəxsiyyət kimi gerçək obrazının qavranılmasında müstəsna əhəmiyyət daşıyırlar.

Ə.Ağaoğlunun epistolyar irsində Azərbaycanın siyasi və ictimai-mədəni tarixində özünəməxsus iz qoyan, çağdaş Azərbaycan düşüncəsində olduqca təzadlı qiymətləndirilən Nəriman Nərimanova (14 aprel 1870, Tiflis – 19 mart 1925, Moskva) göndərdiyi məktublar diqqəti cəlb edir. Ə.Ağaoğlunun N.Nərimanova göndərdiyi cəmisi iki məktub hər iki böyük azərbaycanlı haqqında geniş təsəvvür formalaşdırmağa kifayət edir. Təsadüfi deyil ki, Ə.Ağaoğlunun demək olar ki, bütün tədqiqatçıları onun N.Nərimanova göndərdiyi məktubları ən müxtəlif rakurslardan təhlil etmiş, Ə.Ağaoğlunu və N.Nərimanovu həm də zaman kontekstində qiymətləndirməyə çalışmışlar. Məktublardan da görünür ki, ayrı-ayrı siyasi baxışlara malik olsalar da, bir-birinin şəxsiyyətinə münasibəti məhz siyasətin fövqündə dayanır. N.Nərimanov Ə.Ağaoğlunu millətini dərindən sevən, onun yolunda canından keçməyə hazır olan sağlam düşüncəli bir şəxs kimi görür, onun öz xalqı üçün faydalı işlər görəcəyinə inanır, ona görə də sürgündən xilası üçün əlindən gələni edir. Ə.Ağaoğlu "Azərbaycan, yoxsa Türkiyə" dilemması qarşısında qəti seçimini etsə də, N.Nərimanovu doğru və səmimi bir insan, Azərbaycana rəhbərliyini isə xeyirli bir əlamət kimi qiymətləndirir. Ə.Ağaoğlu və N.Nərimanov – bir-birinə fərqli iki siyasi dünyagörüşün milli əxlaq müstəvisində məhz birləşmə nöqtələri kimi xarakterizə oluna bilər. Odur ki, Ə.Ağaoğlunun epistolyar irsi çərçivəsində onun N.Nərimanova göndərdiyi iki məktubun təhlilini vacib sayırıq.

Ə.Ağaoğlunun məktublaşdığı şəxslərdən biri də Azərbaycan və türk milli düşüncə tarixində silinməz izlər qoymuş Əli bəy Hüseynzadə (24 fevral 1864, Salyan – 17 mart 1940, İstanbul) olmuşdur. Ə.Ağaoğlu ilə Ə.Hüseynzadəni – bu amal qardaş-

larını zamanın özü bir araya gətirmişdi. Fikir babaları M.F.Axundzadənin missiyasını iyirminci yüzilliyin əvvəllərində yeni ictimai-siyasi şərtlər daxilində daha geniş miqyasda və məzmunda davam etdirmək, artıq məktəb, teatr, qəzet yaratmış milləti həm də öz siyasi taleyini müəyyənləşdirmək üçün səfərbər etmək vəzifəsini zaman digər əqidə dostları ilə birlikdə onların üzərinə qoymuşdu. 1905-ci il 17 oktyabr manifestinin verilməsindən hələ bir neçə ay əvvəl imperiyanın müsəlman xalqlarına ruslarla bərabər hüquqların verilməsi tələbi ilə çıxış edən, xüsusi müraciətin mətnini hazırlayanlar arasında Ə.Ağaoğlu ilə Ə.Hüseynzadə də vardı. Onlar (Ə.Topçubaşov da nümayəndələr arasında idi) böyük maarifpərvər və xeyriyyəçi H.Z.Tağıyevin yardımı ilə Rusiyanın paytaxtına gedərək türk-müsəlman əhaliyə qəzet çıxarmağa imkan verməyən Qafqaz Senzura Komitəsinin xəbəri olmadan Peterburq Baş Mətbuat İdarəsindən "Həyat" qəzetinin nəşrinə icazə almışdılar [7, s.19-21]. Tale təxminən eyni vaxtda onları Türkiyəyə aparır, 1909-cu ildə Ə.Ağaoğlu, 1910-cu ildə Ə.Hüseynzadə "əsir yurd"dan türkçülük ideyalarının həyata keçə biləcəyinə inandıqları məmləkətə gedirlər, bir yerdə "Türk ocağı"nı (1911) qururlar [8, s.18], "İttihad və Tərəqqi"nin xətti ilə Rusiya müsəlmanlarının gələcək taleyini müəyyənləşdirmək məqsədilə "Turan heyəti"nin tərkibində Avropanın mərkəzi şəhərlərində təbliğat aparırlar, Xalq Cümhuriyyəti elan olunandan sonra milli dövlət quruculuğu məsələsini ziyalılar arasında müzakirə etmək üçün yenə bir yerdə Azərbaycana gəlirlər [7, s.23-24]. Türkiyədə uzun illər davam edən əqidə dostluğunun üzərinə ailə dostluğu da gəlir; Ə.Ağaoğlu İstanbulda təhsil alan qızları Sürəyya və Tazə xanımı (Tezer) Ə.Hüseynzadəyə əmanət edir...

Ə.Ağaoğlu Maltadan ailəsinə göndərdiyi məktublarda da dönə-dönə Ə.Hüseynzadənin adını çəkmişdir. Əli bəy Hüseynzadə 1919-cu ildə Damad Fərid Paşa[3] hökuməti zamanında iki dəfə həbs edilmiş, Bəkirağa Bölüyündə saxlanılmış, xoşbəxtlikdən Maltaya sürgün edilmədən azadlığa buraxılmışdır. Ə.Ağaoğlu

[3] Fərid Paşa (1853-1923) - Osmanlı imperiyasının dövlət xadimi. VI Mehmedin bacısı ilə evli olduğundan "Damad" ləqəbini qazanmış, iki dəfə (10 mart 1919 – 4 oktyabr 1919 və 5 aprel 1920 – 18 oktyabr 1920) sədr-əzəm (baş nazir) postunu tutmuşdur.

1919-cu ilin noyabr ayında Maltadan həyat yoldaşı Sitarə xanıma göndərdiyi məktubda Ə.Hüseynzadənin azadlığa çıxdığını sevinclə qarşılayır: "Ziya bəyə (Ziya Göyalp nəzərdə tutulur – *Ş.Ş.*) gələn bir məktubda Əli bəyin təhliyə olunduğu yazılır. Çox məmnun oldum. Ona məndən salam deyin və Edhiyə xanımı da (Ə.Hüseynzadənin həyat yoldaşı) təbrik eləyin. Darılarını bizim başımıza sovursunlar!" [5, s.19]. Övladlarına göndərdiyi 2 fevral 1920-ci il tarixli məktubda da Ə.Hüseynzadənin azadlığa buraxılmasından çox məmnun olduğunu yazırdı [5, s.80]. Ümumiyyətlə, Ə.Ağaoğlunun ailə üzvlərinə göndərdiyi bütün məktublarda bu və ya digər şəkildə dostlarından, o cümlədən Ə.Hüseynzadədən bəhs olunur.

Ə.Ağaoğlunun Ə.Hüseynzadəyə ikisi fransızca olmaqla on beş məktubu[4] isə türk düşüncə tarixinin iki nəhəng simasının münasibətlərini bütün parametrləri ilə göstərmək gücündədir və həmin məktublar həm də tarixi-mədəni əhəmiyyətə malikdir.

Nəticə. Beləliklə, qeyd edə bilərik ki, Ə.Ağaoğlunun epistolyar irsində Maltadan ailəsinə göndərdiyi, N.Nərimanova ünvanladığı və Ə.Hüseynzadəyə yazdığı məktublar xüsusilə diqqəti cəlb edir. Həmin məktubların tarixi-mədəni, ictimai-siyasi aspektlər kontekstində araşdırılması vacib məsələlərdəndir.

İstifadə edilmiş ədəbiyyat:

1. Əlyar Səfərli, Xəlil Yusifli. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1982, 386 s.
2. Abid Tahirli. Əhməd bəy Ağaoğlunun epistolyar irsi. https://modern.az/news/2223777. 29 dekabr 2019.
3. Səməd Ağaoğlu. Babamdan hatıralar. Ankara: Zerbamat Mətbaası, 1940, 213 s.
4. Abid Tahirli. Mətbuat: millətin dili, gücü və güzgüsü. Bakı: Elm və təhsil, 2017, 696 s.
5. Ahmet Ağaoğlu. Malta sürgünlüğünden gözümün nurlarına mektublar. Hazırlayan: Ömer Erden. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2019, 268 s.
6. Переписка Мирзы Фатали и Рашид – бека Ахундовых. / Составители: Г.А.Гасанов, Э.А.Джамиль-заде. Вступительная

[4] Məktubların tam mətni üçün bax: Yılmaz Özkaya. Ahmet Ağaoğlunun Hüseyinzade Ali Beye mektupları. Türk Yurdu, Nisan 2011, cilt: 31, sayı: 284 (100. Yıl özel Sayı). https://www.turkyurdu.com.tr.

статья и аннотированный словарь имен Э.А.Джамиль-заде. Послесловие Г.А.Гасанова. Баку: Гянджлик, 1991, 172 s.
7. Ofeliya Bayramlı. Görkəmli fikir dühası / Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. İki cilddə I cild. Transliterasiya, tərtib, müqəddimə, şərh və izahların müəllifi O.Bayramlı. Bakı: Çaşıoğlu, 2008, s.19-21.
8. Əhməd Ağaoğlu. Seçilmiş əsərləri. Tərtib edənlər: Əziz Mirəhmədov, Vilayət Quliyev. Ön sözün, izah və şərhlərin müəllifi: Vilayət Quliyev / Ağaoğlu. Bakı: Şərq-Qərb, 2007, 392 s.

Shahbaz Shamioglu

EPISTOLARY HERITAGE OF AHMET AGAOGLU IN THE CONTEXT OF HISTORICAL-CULTURAL, SOCIO-POLITICAL ASPECTS

Summary

Epistolary heritage occupies a special place in the rich creativity of Ahmet Agaoglu. The analysis shows that the letters sent by him to his family members and contemporaries are an excellent source for the preparation of a scientific biography of A.Agaoglu. They contain detailed materials about his life in Shusha, Tiflis, Paris, Ankara and Istanbul. The letters are also able to provide a clear picture of A.Agaoglu's political, scientific and philosophical views and shed light on the ideas of Turkism and Turanism. At the same time, A.Agaoglu's epistolary heritage confirms that he favored Western values in society and Eastern values in the family.

The study systematizes A.Agaoglu's epistolary heritage from the point of view of address, analyzes the letters he sent from Malta to his family members, as well as to Nariman Narimanov and Ali Bey Huseynzadeh.

The research shows that the Maltese letters reveal A.Agaoglu's character in all its features. It is concluded that these letters are of exceptional importance for understanding the true image of A.Aghaoglu as a person, so their study, analysis and evaluation from different sides are of particular relevance.

A.Agaoglu's letters to N.Narimanov show that although they have different political views, their attitude towards each other's personality is above politics.

Fifteen letters of A.Agaoglu to A.Huseynzadeh, two of which are in French, can show the relationship between the two giants of the history of Turkish thought in all its parameters.

The final conclusion is that A.Agaoglu's epistolary heritage has a special significance and it is important to consider it in the context of historical-cultural, socio-political aspects.

Keywords: epistolary heritage, historical-cultural, socio-political, Malta, Nariman Narimanov, Ali-bey Huseynzadeh

Шахбаз Шамыоглу

ЭПИСТОЛЯРНОЕ НАСЛЕДИЕ АХМЕДА АГАОГЛУ В КОНТЕКСТЕ ИСТОРИКО-КУЛЬТУРНЫХ И СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ АСПЕКТОВ

Резюме

Эпистолярное наследие занимает особое место в богатом творчестве Ахмеда Агаоглу. Проведенный анализ показывает, что письма, отправленные им членам семьи и современникам, являются прекрасным источником для подготовки научной биографии А.Агаоглу. В них содержатся подробные материалы о его жизни в Шуше, Тифлисе, Париже, Анкаре и Стамбуле. Письма также способны дать четкое представление о политических, научных и философских взглядах А. Агаоглу, пролить свет на идеи тюркизма и туранизма. В то же время эпистолярное наследие А.Агаоглу подтверждает, что он отдавал предпочтение западным ценностям в обществе и восточным – в семье.

В исследовании систематизировано эпистолярное наследие А.Агаоглу с точки зрения адресации, проанализированы письма, которые он отправлял с Мальты членам своей семьи, а также Нариману Нариманову и Али-бею Гусейнзаде. Исследование показывает, что мальтийские письма раскрывают характер А.Агаоглу во всех его проявлениях. Делается вывод, что эти письма имеют исключительное значение для понимания истинного облика А.Агаоглу как личности, поэтому их изучение, анализ и оценка с разных сторон особенно актуальны.

Письма А.Агаоглу к Н.Нариманову показывают, что, хотя они придерживаются разных политических взглядов, их отношение к личности друг друга выше политики. Пятнадцать писем А.Агаоглу к А.Гусейнзаде, два из которых на французском языке, позволяют показать отношения между двумя гигантами истории турецкой мысли во всех их параметрах.

Итоговый вывод заключается в том, что эпистолярное наследие А.Агаоглу имеет особое значение и его важно рассматривать в контексте историко-культурных и социально-политических аспектов.

Ключевые слова: эпистолярное наследие, историко-культурные, социально-политические аспекты, Мальта, Нариман Нариманов, Али-бей Гусейнзаде